BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Sosial-siyasi elmlər seriyası 2007*

# QANUNSUZ OLARAQ NARKOTİK XASSƏLİ BİTKİLƏRİ KULTİVASİYA ETMƏ CİNAYƏTİNİN OBYEKTİV CƏHƏTİ HAQQINDA

**H.A.ASLANOV**
*Bakı Dövlət Universiteti*

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 237-ci maddəsində nəzərdə tutulmuş cinayətin obyektiv cəhəti aşağıdakı əməllərdə ifadə olunur:

1) qanunsuz olaraq narkotik xassəli bitkiləri əkmə;

2) qanunsuz olaraq narkotik xassəli bitkiləri yetişdirmə;

3) qanunsuz olaraq narkotik xassəli bitkiləri (onların hissələrini) toplama;

4) çətənə, xaşxaş növlərini və ya tərkibində narkotik maddələr olan digər bitkiləri kultivasiya etmə.

Cinayət işlərinin öyrənilməsi göstərir ki, bütün cinayətlərin içərisində narkotik xassəli bitkiləri əkmə növündə cinayət əməli 0%, yetişdirmə əməli isə 100% təşkil edir.

«Kultivasiya etmə» termini Azərbaycan dilində bir neçə mənada işlədilir. «Kultivasiya etmə» ümumi anlayış kimi torpağın becərilməsini əhatə edir (1, s. 171). Kultivasiya etməyə aşağıdakı kimi anlayış verir: 1) əkmə, yetişdirmə; 2) torpağın kultivasiyası; 3) xüsusi üsullarla nəyinsə inkişaf etdirilməsi, təkmilləşdirilməsi; nəyinsə inkişafına kömək etmə (10, s. 150).

Kultivasiya anlayışı altında əkilməsi, yetişdirilməsi qadağan edilən çətənənin, xaşxaşın növlərinin və tərkibində narkotik maddələr olan digər bitkilərin seleksiyasını, yəni çətənənin, xaşxaşın və tərkibində narkotik maddə olan digər bitkilərin yeni növlərinin və ya onların hibridlərinin yaradılmasına yönələn hərəkətləri başa düşmək lazımdır (12, s. 291).

Qanunsuz olaraq narkotik xassəli bitkiləri kultivasiya etmə cinayətinin nəzərdə tutulduğu norma blanket dispozisiyalıdır. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 237-ci maddəsində sadalanan narkotik xassəli bitkilərin kultivasiyasına dair məsələnin tənzimi «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında», «Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan prekursorların siyahılarının təsdiq edilməsi haqqında» və «Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahılarının

təsdiq edilməsi haqqında» 28 iyun 2005-ci il tarixli qanunlarla (5, s. 474-498) ilə həyata keçirilir.

Narkotik xassəli bitkiləri qanunsuz olaraq kultivasiya etmə cinayətinin obyektiv cəhətini dörd alternativ formada ifadə olunan fəal hərəkətlər təşkil edir (8, s. 145). Cinayətin obyektiv cəhətini təşkil edən hərəkətlərdən biri narkotik xassəli bitkiləri əkməkdə istifadə olunan hərəkətdir.

Əkmə toxumun səpilməsi və ya bitkinin şitilinin torpağa basdırılmasıdır. Başqa sözlə, əkmə heç bir icazəsi olmadan istənilən torpaq sahəsində, o cümlədən boş torpaqlarda narkotik xassəli bitkilərin yetişdirilməsi məqsədilə onların toxumunun torpağa səpilməsi və ya şitilinin torpağa basdırılmasını nəzərdə tutur. «Narkotik vasitələrin, güclü təsir edən və zəhərli maddələrin qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» Azərbaycan Respublikası Ali Məhkəməsinin 11 iyul 1997-ci il tarixli 1 saylı qərarının 13-cü bəndinə uyğun olaraq becərilməsi qadağan edilmiş tiryək xaşxaşını, Hind, Cənubi Mancuriya, Cənubi Çu, Cənubi Arxon, Cənubi Krasnodar çətənəsini, qanunsuz olaraq yağlı xaşxaşı əkmə dedikdə, qanunsuz olaraq həmin bitkilərin toxumunu və şitilini hər hansı torpaq, o cümlədən boş torpaq sahələrində əkmə başa düşülür. Qeyd olunan hərəkətlər törədildiyi andan narkotik xassəli bitkilərin toxumunun səpildiyi, yaxud şitilinin basdırıldığı torpağın sahəsindən və toxumun cücərib-cücərməməsindən, yaxud bitkinin böyüyüb-böyüməməsindən asılı olmayaraq narkotik xassəli bitkiləri əkmə əməli başa çatmış cinayətin tərkibini yaradacaqdır.

Narkotik xassəli bitkilərin əkildiyi yer qismində istənilən torpaq sahəsi, istixana, parnik və s. çıxış edə bilər. Bu zaman narkotik xassəli bitkiləri əkmə cinayətinin başa çatma anı toxumun və ya şitilin həmin bitkilərin yetişdirilməsi nəzərdə tutulan təbii və ya süni yolla təchiz edilmiş torpaq sahəsində səpilməsi və ya şitilinin torpağa basdırılması anı hesab edilməlidir. Narkotik xassəli bitkiləri əkmə əməlinə verilən belə anlayış Cinayət Məcəlləsinin 237-ci maddəsində nəzərdə tutulan cinayət tərkibinin cinayət-hüquqi təbiətindən irəli gəlir (13, s. 198).

Müəlliflərdən V.İ.Tkaçenko əkməyə aşağıdakı kimi anlayış verir: «Tərkibində narkotik maddələr olan bitkiləri əkmə dedikdə, narkotik xassəli bitkinin toxumunun məhsul almaq məqsədilə torpağa səpilməsi başa düşülür» (15, s. 49).

Fikrimizcə, qeyd olunan fikirlər cinayətin obyektiv cəhətini yaradan anlayışlara aydınlıq gətirsə də, müəyyən qüsurlardan xali deyildir. Tez-tez narkotik xassəli bitkilərin toxumunun səpilməsi anlayışı ilə belə bitkilərin şitilinin əkilməsini eyniləşdirirlər. Hesab edirik ki, burada səhvə yol verilmişdir ki, bu da narkotik xassəli bitkilərin əkilməsi və yetişdirilməsi anlayışlarının qarışıq salınmasına səbəb olur. Qeyd olunan hallar praktiki cəhətdən mühüm cinayət-hüquqi əhəmiyyət kəsb edir. Əkmə və yetişdirmənin müstəqil cinayət tərkibləri olmasını sübut etməyə ehtiyac yoxdur. Məhz buna görə də həmin anlayışları, onlar cinayətin obyektiv cəhətlərini yaratdıqları üçün qarışdırmaq olmaz. «Əkmə və yetişdirmə zamana görə bir-birindən ayrılan hərəkətlərdir. Onlar tərkibində narkotik maddələr olan bitkilərin kultivasiyasına yönələn əməliyyatın mərhələləri kimi müxtəlif şəxslər tərəfindən həyata keçirilə bilər» (15, s. 49). Cinayət Məcəlləsinin

237-ci maddəsinin dispozisiyasında göstərilmiş qanunsuz hərəkətlərin başqa cür başa düşülməsi cinayətin başaçatma anının müəyyən edilməsini çətinləşdirmiş olardı.

Torpaqda əkmək məqsədilə tərkibində narkotik maddələr olan bitkilərin toxumunu və ya şitilini əldəetmə, torpaqdan kənarda toxumun cücərdilməsi və ya torpağın səpin üçün hazırlanması Cinayət Məcəlləsinin 237-ci maddəsində göstərilmiş cinayətin törədilməsinə hazırlıq hərəkətləri kimi qiymətləndirilməlidir. Eyni zamanda həmin bitkilərin toxumunun (şitilinin) əkilməsi və yetişdirilməsi hallarında bu cinayətin obyektiv cəhəti tam icra edilmiş sayılacaqdır. Tərkibində narkotik maddələr olan bitkilərin toxumunun səpilməsi və həmin bitkilərə qulluq göstərilməsini təqsirli şəxslə bərabər digər şəxslər də (ailə üzvləri, qonşular, dostlar) həyata keçirərlərsə, onlar köməkçi qismində cinayətdə iştirakçılığa görə məsuliyyətə cəlb edilməlidirlər (7, s. 43).

Bəzi müəlliflərə görə, toxumun cücərdilərək böyüməsi üçün onun kifayət etməyən miqdarda torpaqda cücərdilməsi (şitilin becərilməsi) narkotik xassəli bitkiləri kultivasiya etmə cinayətinə hazırlıq hərəkətləri kimi qiymətləndirilməlidir (14, s. 96). Bəzi müəlliflərə görə isə narkotik xassəli bitkinin toxumunun əldə edilməsinə, toxumun torpaqdan kənarda və ya bitkinin tam yetişdirilib başa çatdırılmasını (sistemin böyüdülməsini) təmin etməyəcək miqdarda az torpaqda cücərdilməsinə yönəldilən bütün hərəkətlər qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiyası cinayətinə hazırlıq hərəkəti kimi qiymətləndirilməlidir (13, s. 199).

Fikrimizcə, tərkibində narkotik maddələr olan bitkinin toxumunun əldə edilməsinə və toxumun torpaqdan kənarda cücərdilməsinə yönələn bütün hərəkətləri qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiyası cinayətinə hazırlıq hərəkəti kimi qiymətləndirmək olar. Lakin fikrimizcə, bitkinin toxumunun və ya şitilinin az və ya çox olmasından asılı olmayaraq hər hansı miqdarda torpağa, məsələn, gül dibçəyinə, yeşiyə, qutuya əkilməsi CM-in 237-ci maddəsində nəzərdə tutulan cinayətin törədilməsinə hazırlıq deyil, başa çatmış cinayət kimi qiymətləndirilməlidir. Çünki qanunverici CM-in 237.1-ci maddəsinin dispozisiyasında belə bitkilərin sadəcə əkilməsini başa çatmış cinayət əməli qismində nəzərdə tutmuşdur. Bu o deməkdir ki, bitkinin toxumunun və ya şitilinin torpağa əkilməsi (səpilməsi) hərəkətinin edilməsi kifayətdir ki, cinayət başa çatmış hesab edilsin.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 237-ci maddəsində nəzərdə tutulan cinayətin obyektiv cəhətini təşkil edən digər bir hərəkət qanunsuz olaraq narkotik xassəli bitkiləri yetişdirmə əməlidir. Narkotik xassəli bitkiləri yetişdirmə səpilmiş toxuma və bitkinin cücərtisinə, onları müəyyən böyümə mərhələsinə çatdırana qədər qulluq göstərmədə ifadə olunur. V.N.Kurçenkonun fikrincə, qanunsuz olaraq narkotik xassəli bitkiləri yetişdirmə dedikdə, səpilmiş toxuma və ya bitkinin cücərtisinə, onları müəyyən böyümə mərhələsinə çatdırana qədər qulluqetmə başa düşülməlidir. Müəllif hesab edir ki, narkotik xassəli bitkilərin toxumu səpilmiş və ya onların təbii şəkildə bitdiyi torpaq sahələrində bitkinin toxumunu səpməyən (şitili basdırmayan, onu sulamayan) şəxs tərəfindən həmin bitkilərə qulluq göstərilməsi narkotik xassəli bitkiləri yetişdirmə cinayət əməlinin tərkibini yaradır (12, s.

198). A.A.Mayorov və V.B.Malininin fikrincə, narkotik xassəli bitkiləri yetişdirmə dedikdə, narkotik xassəli bitkiləri əkməyən (onların toxumunu torpağa səpməyən, şitilini torpağa əkməyən) şəxs tərəfindən toxumu səpilmiş və ya təbii şəkildə bitmiş torpaq sahələrində bitkiyə qulluq edilməsi başa düşülməlidir. Alimlərin yuxarıda qeyd olunan fikirləri narkotik xassəli bitkiləri yetişdirmə əməlinə cinayət-hüquqi mənada belə bitkiləri əkmə əməlindən fərqli anlayış verilməsinə imkan verir (13, s. 200).

Bəzi müəlliflərə görə isə tərkibində narkotik maddələr olan bitkiləri yetişdirmə səpilmiş toxuma (toxum səpilmiş torpağa) və becərilməsi cinayət qanunu ilə qadağan olunan narkotik tərkibli bitkilərə, həmin bitkilərin narkotik vasitələrin hazırlanması üçün yetişmə səviyyəsinə çatdırmaq məqsədilə qulluq göstərilməsi başa düşülür (14, s. 97). Narkotik xassəli bitkiləri əkmə anlayışının təhlili həmin bitkilərin yetişdirilməsi anlayışını müəyyən etməyə kömək edir. Cinayət hüquq ədəbiyyatında yetişdirməni «əkilmiş sahəyə və orada bitən bitkilərə qulluq etmə» kimi xarakterizə edirlər (15, s. 49). Lakin bəzi müəlliflər, məsələn, M.Q.İkramova yetişdirmə dedikdə, əkilmədən bitən bitkilərə təqsirkar tərəfindən qulluq göstərilməsini başa düşür (9, s. 75).

Fikrimizcə, tərkibində narkotik maddələr olan bitkiləri əkmə və yetişdirmə bir-birini tamamlayan hərəkətlərdir. Eyni bir şəxs həm tərkibində narkotik maddələr olan bitkiləri əkə, həm də onları yetişdirə bilər. Bu halda həmin şəxsin əməli CM-in 237.1-ci maddəsinin dispozisiyasında göstərilən həmin hərəkətlərin hər ikisi nəzərə alınmaqla tövsif edilməli və əlbəttə ki, bütün bunlar cəza təyininə öz təsirini göstərməlidir. Tərkibində narkotik maddələr olan bitkiləri əkməyən, lakin onları yetişdirən şəxsin də əməli eyni maddə ilə tövsif ediləcəkdir, lakin bu əlamət də cəza təyinində nəzərə alınacaqdır. Əslində hər iki halda əməlin tövsifində heç bir fərq özünü göstərməyəcəkdir.

Beləliklə, qanunsuz olaraq narkotik xassəli bitkiləri əkmə və ya yetişdirmə toxumun səpilməsi (şitilin əkilməsi) üçün torpağın hazırlanması, toxumun torpağa səpilməsi, ona qulluq edilməsi (torpağı belləmə, malalama, suvarma, alaq otlarını təmizləmə, bitki ziyanvericiləri ilə mübarizə aparma və s.) nəzərdə tutulan aktiv hərəkətlərdə ifadə olunur.

Narkotik xassəli bitkiləri qanunsuz olaraq əkmə və ya yetişdirmə əməlləri bitkinin tam yetişmə mərhələsinə çatıb-çatmamasından asılı olmayaraq onların törədildiyi andan başa çatmış sayılır.

Qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkilərin (belə bitkilərin hissələrinin) toplanması əməli CM-in 237-ci maddəsində nəzərdə tutulan cinayət tərkibinin obyektiv cəhətini təşkil edən hərəkətlərdən biridir. Toplama sözünün lüğəti mənası «yığıb topa halına yetirmək»dir (2, s. 134). Cinayət-hüquqi mənada toplama dedikdə, qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkilərin və (və ya) onların hissələrinin yığılması, biçilməsi, meyvələrinin dərilməsi başa düşülməlidir. Qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri (belə bitkilərin hissələrini) toplama əməli bitkinin, onun hissələrinin (meyvələrinin) yığıldığı, biçildiyi andan başa çatmış sayılır. Tərkibində narkotik maddələr olan bitkinin birinin və ya bir neçəsinin (torpaq sahəsində olan bütün bitkilərin yox) torpaqdan çıxarılması,

yaxud onun bir hissəsinin yığılması CM-in 237-ci maddəsində nəzərdə tutulan cinayətin başa çatmış hesab edilməsi üçün kifayətdir. Əməlin qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkilərin (belə bitkilərin hissələrinin) toplanması kimi tövsif edilməsi üçün əkilib becərilmiş bütün torpaq sahəsində olan bitkilərin toplanmasına ehtiyac yoxdur. Tərkibində narkotik maddələr olan bitkiləri (belə bitkilərin hissələrini) toplayan şəxs həmin bitkiləri əkməyən və becərməyən şəxs də ola bilər. Bu halda da əməlin tövsifi dəyişməyəcəkdir. Şəxsin əməli CM-in 237-ci maddəsi ilə tövsif edilməlidir.

Qeyd etmək lazımdır ki, məhkəmə təcrübəsində çox hallarda tərkibində narkotik maddələr olan bitkilərin (belə bitkilərin hissələrinin) toplanması əməli tövsifdə göstərilmir, cinayətin obyektiv cəhətini yaradan belə hərəkət «yetişdirmə» və ya «kultivasiya etmə» kimi öz qiymətini alır. Məsələn, təqsirləndirilən şəxs C. 2005-ci ilin may ayında yaşadığı Əli Bayramlı şəhəri, Xaqani küçəsindəki 737 saylı evin həyətyanı sahəsində qanunsuz olaraq 42 ədəd (ümumi çəkisi 34 kq 875 qram) külli miqdarda narkotik xassəli, çətənə (kannabis) bitkisini əkmiş, həmin narkotik tərkibli bitkiləri aqrotexniki qaydada qulluq göstərməklə yetişdirmiş, yetişdirdiyi bitkilərin bir hissəsinin yarpaqlarından satış məqsədi olmadan qanunsuz olaraq, şəxsi istehlak miqdarından artıq miqdarda olan 150 qram çəkidə narkotik vasitə - qurudulmuş marixuana hazırlayaraq yaşadığı ünvanda saxladığına görə Ağır Cinayətlərə dair İşlər üzrə Azərbaycan Respubilikası Məhkəməsinin 12 yanvar 2006-cı il tarixli hökmü ilə CM-in 234.1-ci və 237.2.3-cü maddələri üzrə təqsirli bilinmiş və onun əməli qeyd olunan maddələrlə cinayətlərin məcmusu qaydasında tövsif edilmişdir (3). Məhkəmənin hökmündə diqqət yetirilməli olan və fikrimizcə, düzgün olmayan cinayət-hüquqi qiymət ondan ibarətdir ki, məhkəmə əməli tövsifini ifadə edən zaman əslində narkotik tərkibli bitkilərin toplanması formasında onların kultivasiyasına görə şəxsi təqsirli bilməli idi. Qeyd olunan hökmdə isə narkotik tərkibli bitkilərin toplanması formasında onların kultivasiyası nəzərdə tutulmur.

Narkotik xassəli bitkiləri qanunsuz olaraq kultivasiya etmə cinayətinin obyektiv cəhətini yaradan hərəkətlərdən biri də belə bitkilərin kultivasiyasıdır. Kultivasiya, sözün dar mənasında bitkilərin yetişdirilməsinin, seleksiyasının texnologiyasının təkmilləşdirilməsi, həmçinin yabanı şəkildə bitən bitkilərə qulluq edilməsi anlayışını verir.

«Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Azərbaycan Respublikasının 28 iyun 2005-ci il tarixli Qanunu 1.0.6-cı maddəsində tərkibində narkotik maddələr olan bitkilərin qanunsuz kultivasiyası dedikdə, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla tərkibində narkotik maddələr olan bitkilərin əkilməsi, yetişdirilməsi və ya toplanması başa düşülür. Qanundan da görünür ki, narkotik xassəli bitkilərin qanunsuz kultivasiyası belə bitkilərin həm əkilməsini, həm yetişdirilməsini, həm də toplanmasını nəzərdə tutur. Sadalanan hərəkətlərin hamısı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 237-ci maddəsində öz əksini tapmışdır. Bundan başqa, kultivasiya dedikdə, tərkibində narkotik maddələr olan bitkilərin yetişdirilməsi texnologiyasının təkmilləşdirilməsi, belə bitkilərin yeni növlərinin yetişdirilməsi, onların məhsuldarlığının artırılması, əlverişsiz hava

şəraitinə davamlılığın yüksəldilməsi, yabanı bitən belə bitkilərə qulluq edilməsi (məsələn, torpağın suvarılması və s.) başa düşülməlidir.

Fikrimizcə, tərkibində narkotik maddələr olan bitkilərin əkilməsi, yetişdirilməsi və ya toplanması belə bitkilərin kultivasiyasının müxtəlif formalarıdır. Ona görə də hesab edirik ki, CM-in 237-ci maddəsində göstərilən əməlin tövsifi zamanı məhkəmənin hökmündə bütün hallarda kultivasiyanın konkret forması öz əksini tapmalıdır. Qeyd olunan halla əlaqədar məhkəmə təcrübəsində səhvlərə rast gəlinir. Məhkəmələr çox vaxt kultivasiyanı CM-in 237-ci maddəsinin dispozisiyasında sadalanan hərəkətlərin törədilməsində bir üsul qismində qəbul edirlər. Məsələn, təqsirləndirilən şəxs M. 2005-ci ilin aprel ayında Masallı rayonunda yerləşən köhnə bazar ərazisində əldə etdiyi xaş-xaş bitkisinin toxumlarını yaşadığı Masallı rayonu Sirəbli kəndindəki evinin həyətyanı sahəsində əkib becərdiyinə və 24 may 2005-ci il tarixədək ona aqrotexniki qaydada qulluq edib kultivasiya etməklə yetişdirdiyinə görə Ağır Cinayətlərə dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin 27 sentyabr 2005-ci il tarixli hökmü ilə CM-in 237.1-ci maddəsi üzrə təqsirli bilinmişdir (4). Məhkəmə hökmdə əmələ «kultivasiya etməklə yetişdirmə» kimi deyil, «yetişdirməklə kultivasiya etmə» kimi cinayət-hüquqi qiymət verməli idi.

Tərkibində narkotik maddələr olan bitkilərin qanunsuz kultivasiyası, narkotik xassəli bitkilərin və ya tərkibində narkotik maddələr olan digər bitkilərin yeni növlərinin yaradılmasına şəxsin nail olub-olmamasından asılı olmayaraq başa çatmış hesab edilir.

Narkotik xassəli bitkiləri qanunsuz olaraq kultivasiya etmə cinayətinin obyektiv cəhətinin xüsusiyyətlərindən biri də cinayət tərkibinin bu elementinin əlamətlərinin blanket olmasıdır. Cinayət tərkibinin əlamətlərinin blanket olması həmin əlamətlərin konkret məzmununun hüququn digər sahələrinin normalarından asılı olmasını nəzərdə tutur (11, s. 111-113; 6, s. 15). Narkotik xassəli bitkiləri qanunsuz olaraq kultivasiya etmə cinayətinin qeyd olunan xüsusiyyəti onunla şərtlənir ki, həmin cinayətin obyektiv cəhətini yaradan əlamətlər sözün geniş mənasında qeyri-hüquqiliyə malikdir. Bu cinayət əməli cinayət qanununun tələbləri ilə yanaşı, beynəlxalq və inzibati hüquq normalarını da pozur. Törədilmiş əməlin narkotik xassəli bitkiləri kultivasiya etmə cinayəti kimi tövsif edilməsi üçün əməl qanunsuz törədilməlidir, yəni müəyyən edilmiş qaydalara zidd olaraq törədilməlidir. «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Azərbaycan Respublikasının 28 iyun 2005-ci il tarixli Qanununun 1.0.6-cı maddəsində də göstərilir ki, məhz Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla tərkibində narkotik maddələr olan bitkilərin qanunsuz kultivasiyası, həmin bitkilərin qanunsuz kultivasiyası adlanır. Qanunun 5.2-ci maddəsinə əsasən, dərman vasitələrinin təcrübəvi nümunələrinin işlənib hazırlanması halları istisna olmaqla, Azərbaycan Respublikasının ərazisində narkotik vasitələrin istehsalı və tərkibində narkotik maddələr olan bitkilərin kultivasiyası qadağandır. Qeyd etmək lazımdır ki, Nazirlər Kabineti tərəfindən tərkibində narkotik maddələr olan bitkilərin kultivasiyası haqqında müvafiq qaydaları müəyyən etməmişdir. Fikrimizcə, müvafiq qaydaların təsdiq edilməsi tərkibində narkotik maddələr olan bitkilərin kultivasiyasının qanuni rejiminin

müəyyən edilməsini rəsmiləşdirmiş olardı. Başqa sözlə, narkotik xassəli bitkiləri yalnız dövlətin müəyyən etdiyi kvota hüdudlarında və yalnız buna müvafiq icazəsi olan dövlətin müəssisə və ya qurumları, yalnız dərman vasitələrinin təcrübi nümunələrinin işlənib hazırlanması məqsədilə əkmək (yetişdirmək, toplamaq, kultivasiya etmək) hüququna malikdir. Digər bütün hallarda isə tərkibində narkotik maddələr olan bitkilərin əkilməsi, ümumiyyətlə, qadağandır.

Narkotik xassəli bitkiləri qanunsuz olaraq kultivasiya etmə cinayəti quruluşuna görə formal tərkibli cinayətdir. Törədilmiş əməlin qanunsuz olaraq narkotik xassəli bitkiləri kultivasiya etmə cinayətinin başa çatmış cinayət kimi tövsif edilməsi üçün hər hansı nəticənin baş verməsi tələb olunmur. Bu cinayət tərkibində narkotik maddələr olan bitkilərin əkildiyi (toxumunun səpildiyi və ya şitilinin torpağa basdırıldığı) və ya belə bitkilərin yetişdirildiyi (bitkiyə qulluq göstərilməsi) və kultivasiyası üzrə işlərin görüldüyü andan başa çatmış hesab edilir.

Bəzi müəlliflərə görə isə qanunsuz olaraq tərkibində narkotik vasitələr olan bitkiləri əkmə, yetişdirmə, onları (onların hissələrini) toplama cinayətləri kəsik tərkibli cinayətlərdir (14, s. 97). Ona görə də həmin əməllər tərkibində narkotik vasitələr olan bitkilərin əkilməsinə (toxumun torpağa səpilməsinə), yetişdirilməsinə (bitkiyə qulluq göstərilməsinə), həmin bitkilərin (onların hissələrinin) toplanmasına yönələn hərəkətlər törədildiyi andan başa çatmış sayılır. Həmin əməllərdən sonra hər hansı hərəkətin edilməsi əməlin Cinayət Məcəlləsinin 237-ci maddəsi ilə tövsif olunmasına təsir göstərmir. Cinayət Məcəlləsinin 237-ci maddəsində nəzərdə tutulan hərəkətlər tərkibində narkotik vasitələr olan bitkilərin yetişdirilməsindən, toplanmasından və həmin bitkilərdən narkotik vasitələr alınıb-alınmamasından asılı olmayaraq törədilmiş sayılır. Əgər, məsələn, toxum hər hansı səbəbdən (şaxta vurması və ya quraqlıq səbəbindən) cücərmədikdə, şəxsin əməli özünün ictimai təhlükəliliyini itirmir və Cinayət Məcəlləsinin 237-ci maddəsində nəzərdə tutulan cinayət tərkibi ilə tam əhatə olunur.

Əməlin narkotik xassəli bitkilərin qanunsuz olaraq kultivasiya edilməsi cinayəti kimi tövsif edilməsi üçün bitkilərin əkildiyi və ya yetişdirildiyi torpaq sahələrinin dövlətin, yerli özünüidarəetmə orqanlarının, xüsusi (və ya qarışıq) mülkiyyətdə, habelə ayrı-ayrı fiziki və ya hüquqi şəxslərin mülkiyyətində olmasının, boş torpaqlar olmasının heç bir əhəmiyyəti yoxdur. Qeyd olunan bütün hallarda əməl Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 237-ci maddəsi ilə tövsif edilməlidir.

## ƏDƏBİYYAT


1. Azərbaycan dilinin izahlı lüğəti. II cild. Bakı. «Çıraq» nəşriyyatı. 1999.
2. Azərbaycan dilinin izahlı lüğəti. III cild. Bakı. «Çıraq» nəşriyyatı. 2000.
3. Ağır Cinayətlərə dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin arxivi. İş № A- 0123/2006.
4. Ağır Cinayətlərə dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin arxivi. İş № 1- 190/2005.
5. Azərbaycan Respublikasının Qanunlar Külliyatı. IV cild. Bakı, «Digesta» nəşriyyatı, 2004.

6. Андреева Л.А. Уголовно-правовое противодействие незаконному обороту наркотических средств и психотропных веществ. СПб., 1998.
7. Аргунова Ю.Н., Габиани А.А. Правовые меры борьбы с наркотизмом. М., 1989.
8. Гасанов Э.Г. Борьба с наркотической преступностью: международный и сравнительно-правовой аспекты. М., 2000.
9. Икрамова М.Г. Уголовно-правовая борьба с наркоманией. Ташкент: Фан, 1982.
10. Краткий словарь иностранных слов. 5-е изд. М., 1976.
11. Кудрявцев В.Н. Общая теория квалификации преступлений. М., 2006.
12. Курченко В.Н. Противодействие незаконному обороту наркотических средств и психотропных веществ: уголовно-прововой и уголовно-процессуальный аспекты. СПб., 2003.
13. Майоров А.А. Малинин В.Б. Наркотики: преступность и преступления. СПб., 2002.
14. Мирошниченко Н.А., Музыка А.А. Уголовно-правовая борьба с наркоманией. Киев-Одесса, 1988.
15. Ткаченко В.И. Преступления против здоровья населения. М., ВЮЗИ, 1983.

## ОБ ОБЪЕКТИВНОЙ СТОРОНЕ ПРЕСТУПЛЕНИЯ ПО НЕЗАКОННОЙ КУЛЬТИВАЦИИ, ОБЛАДАЮЩИХ НАРКОТИЧЕСКИМИ СВОЙСТВАМИ РАСТЕНИЙ

**А.А.АСЛАНОВ**

### РЕЗЮМЕ

В статье исследуется объективная сторона преступления по незаконной культивации, обладающих наркотическими свойствами растений. Указывается, что объективную сторону преступления по незаконной культивации, обладающих наркотическими свойствами растений составляют четыре выраженных в альтернативной форме действия: 1) посадка обладающих наркотическими свойствами растений; 2) выращивание; 3) сбор; 4) культивация мака, конопли или других растений, содержащих наркотические вещества. Каждое из этих действий рассматривается в статье в отдельности и делаются соответствующие выводы.

## ABOUT THE OBJECTIVE FEATURE OF CRIME OF CULTIVIZATION OF DRUG PROPERTY PLANTS ILLEGALLY

**H.A.ASLANOV**

### SUMMARY

In the article it is investigated the objective feature of crime of of cultivization of drug plants illegally. It is shown that the objective feature of crime of cultivization of drug property plants is expressed by four alternative forms of actions.1) The plantation of drug featured plants; 2) Their placing; 3) Their gathering (their parts); 4) The cultivization of some sorts of hemp and hasish, or cultivization of other plants containing drug substances as well. In the article each kind of these actions is separately considered and made certain conclusions.